**Rusiya və Azərbaycan Ali Təhsil Müəssisələrinin Assosiasiyasının təsis olunması barədə**

**NİYYƏT MEMORANDUMU**

Təhsil, elm və innovasiyalar sahəsində əməkdaşlığın inkişaf etdirilməsinə, Rusiya və Azərbaycanın ali təhsil müəssisələri arasında birbaşa əlaqələrin genişləndirilməsinə qarşılıqlı marağı nəzərə alaraq;

ali təhsil müəssisələri arasında əlaqələrin möhkəmləndirilməsinin iki dövlət arasında qarşılıqlı anlaşmaya yardım edəcəyinə əmin olaraq;

qarşılıqlı faydalı əməkdaşlığı dərinləşdirmək və gücləndirmək səyini ifadə edərək;

Rusiya və Azərbaycanın aparıcı ali təhsil müəssisələrinin innovativ iqtisadiyyat üçün yüksək ixtisaslı kadrların hazırlanmasına dair səylərinin birləşdirilməsini, Rusiya və Azərbaycan arasında elmi-texniki və texnoloji əməkdaşlığın genişləndirilməsini niyyət edərək;

Ali təhsil müəssisələri Rusiya və Azərbaycan Ali Təhsil Müəssisələri Assosiasiyasının (bundan sonra - Assosiasiya) yaradılması niyyətini bildirirlər.

Assosiasiyanın fəaliyyəti aşağıdakı əsas vəzifələrin yerinə yetirilməsinə yönəldiləcəkdir:

- birgə proqramların formalaşdırılmasına və həyata keçirilməsinə yardım etmək, tədris-metodiki materialların işlənib hazırlanması;
- birgə elmi tədqiqatlar üzrə şəbəkə və ikitərəfli əməkdaşlığın təşkil edilməsinə yardım edilməsi;
- elmi infrastrukturun və innovativ infrastrukturunun birgə subyektlərinin yaradılması, birgə nəşrlərin hazırlanması;
- yüksək texnologiyalı məhsullar bazarında kadr, elmi və texnoloji işin təminatı üzrə Rusiya və Azərbaycan müəssisələri ilə tərəfdaşlığın yaradılmasına və inkişaf etdirilməsinə yardım edilməsi;
- təhsil alanların və elmi-pedaqoji işçilərin akademik mobilliyinin inkişaf etdirilməsinə hər cür yardım edilməsi;
- ictimai tədbirlərin, elm-təhsil və innovasiya profilli konfransların, seminarların, telekörpülərin təşkil edilməsi və həyata keçirilməsi;
- Assosiasiya çərçivəsində dəstəklənən digər əməkdaşlıq formaları.

**Assosiasiyanın təsis edilməsi**

Assosiasiya Rusiya və Azərbaycanın ali təhsil müəssisələrini könüllü əsaslarla birləşdirən qeyri-kommersiya təşkilatıdır. Assosiasiyaya üzvlük Rusiya və Azərbaycanın ali təhsil müəssisələri üçün açıqdır. Yeni üzv Assosiasiya üzvlərinin ümumi yığıncağında razılaşdırıldıqdan sonra qəbul olunur.

Assosiasiyanın yaradılması və fəaliyyətinin təşkil edilməsi məqsədilə, bu Memorandumu imzalayan təhsil müəssisələri işçi qrupunu formalaşdırır.

Rusiya tərəfindən Ufa Dövlət Neft Texniki Universiteti və Azərbaycan tərəfindən Sumqayıt Dövlət Universiteti formalaşdırılan işçi qrupunun milli həmsədrləri qismində çıxış edirlər.

**Digər şərtlər**

Bu Memorandum Tərəflərin üzərinə hüquqi və maliyyə öhdəlikləri qoymur, Tərəflərin həm bu Memorandumun iştirakçıları ilə, həm də başqa təşkilatlarla əməkdaşlıq haqqında digər ikitərəfli və ya çoxtərəfli razılaşmalar və ya memorandumlar imzalamaq hüququnu məhdudlaşdırmır.

Bu Memorandum beynəlxalq müqavilə deyildir və beynəlxalq hüquqla tənzimlənən hüquq və öhdəliklər yaratmır.

Tərəflər Assosiasiyanın yaradılması və fəaliyyətinin təşkil edilməsi üzrə zəruri tədbirlərin həyata keçirilməsi ilə bağlı xərclərini və məsrəflərini müstəqil surətdə ödəyir.

Bu Memorandum imzalandığı tarixdən etibarən qüvvəyə minir.

Memorandum Bakı şəhərində 20 noyabr 2015 il tarixində hər biri rus və Azərbaycan dillərində olmaqla iki nüsxədə imzalanmışdır.

| | |
|---|---|
| **Rusiya Federasiyasının ali təhsil müəssisələri tərəfindən** | **Azərbaycan Respublikasının ali təhsil müəssisələri tərəfindən** |
| Ufa Dövlət Neft Texniki Universiteti | Sumqayıt Dövlət Universiteti |

Samara Dövlət Texniki Universiteti

Ural Dövlət Dağ Universiteti

İdarəetmə Dövlət Universiteti

Tver Dövlət Texniki Universiteti

Moskva Dövlət Linqvistik Universiteti

Rusiya Dövlət Humanitar Universiteti

Böyük Pyotr adına Sankt-Peterburq Politexnik Universiteti

M.T.Kalaşnikov adına İjevsk Dövlət Texniki Universiteti

Şimali Qafqaz Federal Universiteti

Bakı Dövlət Universiteti

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti

Azərbaycan Texniki Universiteti

Azərbaycan Memarlıq və İnşaat Universiteti

Azərbaycan Dövlət İqtisad Universiteti

Azərbaycan Dövlət Pedaqoji Universiteti

Bakı Slavyan Universiteti

Azərbaycan Dillər Universiteti

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti

Kursk Dövlət Universiteti

Kuban Dövlət Universiteti

"Moskva Energetika İnstitutu" Milli Tədqiqat Universiteti

N.P.Oqaryov adına Mordoviya Dövlət Universiteti

Moskva Dövlət Humanitar İqtisadi Universiteti

Kazan Federal Universiteti

A.S.Puşkin adına Rus dili Dövlət İnstitutu

İ.M.Qubkin adına Rusiya Dövlət Universiteti

Dağıstan Dövlət Universiteti

Cənub Federal Univesiteti

Ингушский государственный университет

Azərbaycan Dövlət Rəssamlıq Akademiyası

Azərbaycan Texnologiya Universiteti

Gəncə Dövlət Universiteti

Naxçıvan Dövlət Universiteti

Mingəçevir Dövlət Universiteti

Lənkəran Dövlət Universiteti

Марийский гос. университет. ректор

Дагестанский государств. технический университет

Чеченский государственный университет

РГППУ

Дорошенко

Тольяттинский государственный университет

/ Криштал М.М. /

Московский физико-технический институт МФТИ

Петрозаводский госуниверситет

Национальный исследовательский университет «МИЭТ»

(А.Г. Балашов)

Петрозаводский госуниверситет

Тольяттинский государственный университет

/Криштал М.М., ректор/

Кубанский государственный университет

Южный федеральный университет

Национальный исследовательский университет «МИЭТ»

/А.Г. Балашов/

Государственный институт русского языка им. А.С. Пушкина

Северо-Кавказский федеральный университет

МФТИ

Новгородский университет

Дагестанский государственный университет

Дагест. госуд. технический университет

ФГБОУ Марийский государственный университет

Чеченский государственный университет

РГПУ

Доронин